**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**İQTİSADİ ARAŞDIRMALAR ELMİ-TƏDQİQAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**DİLBƏR DAŞDƏMİR QIZI FƏRƏCOVA**

# MÜƏSSİSƏNİN İNVESTİSİYA FƏALİYYƏTİNİN UÇOTU VƏ AUDİTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**İxtisas: 5303.01 – Mühasibat uçotu**

İqtisad üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2015**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadi təhlil və audit" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Vahid Tapdıq oğlu Novruzov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Mübariz Məmmədhüseyn oğlu Bağırov**

iqtisad elmləri namizədi, dosent
**Şəhla Əli qızı Cəfərova**

**Aparıcı təşkilat:** **Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi**

Müdafiə "18___" sentyabr 2015-ci il tarixdə saat "___" Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutunda iqtisad üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.052 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, Azərbaycan Dövlət İqtisad Universiteti, İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutu

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat " ___ " avqust 2015-ci il tarixində göndərilmişdir.

**Dissertasiya şurasının elmi katibi,**
**i.ü.f.d., dosent** **S.A.Abbasova**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı.** Son on illikdə respublikanın iqtisadi inkişafında müsbət meyllər müşahidə olunur. İqtisadi sahədə həyata keçirilən davamlı islahatlar iqtisadiyyatın dinamik inkişafı, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, yerli və xarici investisiyaların, müasir texnologiyaların cəlb olunması və mütərəqqi idarəetmə təcrübəsinin tətbiqi üçün əlverişli şərait yaratmışdır. 2000-2013-cü illərdə respublikanın iqtisadiyyatına ümumilikdə 160 milyard ABŞ dolları məbləğində investisiya qoyulmuşdur. Həmin illər ərzində neft fonduna ümumi daxilolmalar 97,3 milyard ABŞ dolları təşkil etmiş, ümumi daxili məhsul 3,4 dəfə, sənaye məhsulu istehsalı 3,1 dəfə, qeyri neft sektoru üzrə məhsul istehsalı 2,6 dəfə artmışdır. Qeyd olunanlara rəğmən investisiyanın cəlb olunması və səmərəli istifadə olunması məsələləri bu gün də öz aktuallığını itirməmişdir. İnvestisiya ölkə iqtisadiyyatının inkişafı dinamikasına bilavasitə təsir göstərən, bütövlükdə ölkənin, eləcə də ayrı-ayrı müəssisələrin gələcəyini müəyyən edən mühüm amillərdən biri hesab olunur.

Qeyd etmək lazımdır ki, investisiya ilə bağlı qərarın qəbul edilməsi, investisiya layihələri üzrə variantların qiymətləndirilməsi müvafiq zəruri informasiyanın formalaşdırılmasını tələb edir. Müasir şəraitdə müxtəlif uçot informasiyasına tələbatın artması müəssisənin biznes mühitinin dəyişkənliyi və çox saylı əməliyyatların, proseslərin və hadisələrin monitorinqinin zəruriliyi ilə şərtlənir. Belə ki, bütün ierarx səviyyələrdə idarəetmə qərarlarının hazırlanması və həyata keçirilməsi üçün uçot informasiyasına istifadəçilərin tələbləri daima artmaqdadır. Bu baxımdan yeni idarəetmə sisteminin yaradılması ilk növbədə onun uçot, nəzarət, iqtsiadi təhlil kimi ən mühüm funksiyalarının təkmilləşdirilməsini və beləliklə də, idarəetmədə iqtisadi, o cümlədən, uçot və analitik informasiyaların formalaşması və istifadəsinin yaxşılaşdırılmasını nəzərdə tutur.

Sözü gedən məsələlərin həlli neft sənayesi müəssisələrində xüsusi aktuallıq kəsb edir. Əlbəttə, sahənin müəssisələrində bu günədək tətbiq edilən xərclərin uçotu və nəzarətin təşkilinin ənənəvi sistemi istehsal prosesində çəkilən məsrəflər haqqında informasiyanın əldə edilməsinə və məhsulun (iş, xidmətlərin) maya dəyərinin kalkulyasiyasına imkan verir. Lakin xərclərin uçotu və məhsulun maya dəyərinin kalkulyasiyasının isitifadə olunan sistemi bazar iqtisadiyyatının tələblərinə tam cavab vermir. Həmin problemin həlli müəssisələrdə idarəetmə funksiyası ilə istehsal

xərclərini əlaqələndirən, eləcə də istehsal xərclərinin qüvvədə olan uçot və nəzarət sisteminin təkmilləşdirilməsi məqsədi ilə idarəetmə uçotunun nəzəri və praktiki əsaslarının tədqiq olunmasını zəruri edir. Məsələyə bu aspektdən yanaşaraq vurğulamaq olar ki, neft sənayesi müəssisələrində istehsaldaxili sahələrin uçotunun maliyyə uçotu və hesabatında formalaşan informasiya sisteminə uyğunlaşdırılması məsələlərinin işlənib hazırlanması, daxili uçot və nəzarətin məzmununa yenidən baxılmasının vacibliyi aparılan tədqiqatın əhatə dairəsini müəyyənləşdirmişdir. Bu da, öz növbəsində, investisiya fəaliyyətinin qiymətləndirilməsi, onun uçotu, auditi, təhlili və idarə olunması ilə bağlı metodoloji yanaşmaların və metodların təkmilləşdirilməsini tələb edir. Beləliklə, yuxarıda qeyd olunan problem xarakterli məsələlərin həllinin vacibliyi dissertasiya işinin mövzusunu və onun əsas istiqamətlərini müəyyən etmişdir.

**Problemin öyrənilmə səviyyəsi.** İdarəetmə uçotu və auditin nəzəriyyəsi və metodologiyasının bəzi aspektləri respublikanın iqtisadçı alimləri V.T.Novruzov, S.Y.Müslümov, S.M.Səbzəliyev, İ.M.Abbasov, S.M.Yaqubov, S.M.Qasımov, Q.Ə.Abbasov, C.B.Namazova, H.A.Cəfərli, N.M.İsmayılov, Ə.S.Salahov, Ç.R.Yüzbaşov, R.N.Kazımov, S.A.Abbasova, V.M.Quliyev və b., eləcə də yaxın və uzaq xarici ölkələrin iqtisadçı alimlərindən B.Nidlz, E.S.Xendriksen, R.Entoni, A.D.Şeremet, M.A.Vaxruşina, N.D.Vrublevskiy, O.V.Alekseyeva, V.B.İvaşkeviç, Y.V.Sokolov, O.D.Kaverina, T.P.Karpova, A.N.Kizilova, O.Y.Nikolayeva, V.F.Paliy, V.İ.Podolski, Sokolov Y.V., V.İ.Tkaç və digərlərinin elmi tədqiqat işlərində nəzərdən keçirilmişdir.

Qeyd olunan problemlər üzrə kifayət qədər tədqiqat işlərinin aparılmasına baxmayaraq, neft sənayesi müəssisələrinin investisiya fəaliyyətinin uçotu, auditi və təhlili üzrə nəzəri cəhətdən hazırlanmış və praktiki tətbiqi mümkün olan, müəssisəni eyni zamanda həm investor və həm də resipiyent kimi səciyyələndirən kompleks yanaşma yoxdur. Problemin aktuallığı və mikro səviyyədə onun kifayət qədər işlənməməsi tədqiqatın məqsəd və vəzifələrini müəyyənləşdirir.

**Dissertasiya işinin universitetin elmi-tədqiqat işi ilə əlaqəsi.** Dissertasiya işi Az.DİU-nun "İqtisadi təhlil və audit" kafedrasının "Milli iqtisadiyyatın davamlı inkişafında iqtisadi təhlilin və auditin təşkilinin təkmilləşdirilməsi istiqamətləri» mövzusunda yerinə yetirdiyi elmi-tədqiqat işinin planına uyğundur.

**Dissertasiya işinin məqsədi və vəzifələri.** Tədqiqatın məqsədi neft sənayesi müəssisələrinin strateji və cari investisiya fəaliyyəti çərçivəsində

səmərəli idarəetmə qərarlarının qəbul olunması üçün investisiya fəaliyyətinin idarəetmə uçotu və auditi sisteminin təkmilləşdirilməsinə yönəldilmiş nəzəri müddəaların və praktiki təkliflərin hazırlanmasıdır. Həmin məqsədə nail olmaq üçün tədqiqat işində aşağıdakı vəzifələr müəyyənləşdirilərək həll edilmişdir:

– neft sənayesi müəssisələrinin investisiya fəaliyyətinin idarəetmə uçotunun və auditinin təşkili xüsusiyyətlərinin tədqiq olunması;

– mühasibat uçotunun alt sistemi kimi idarəetmə uçotunun investisiya sisteminin xüsusiyyətlərinin əsaslandırılması;

– investisiya fəaliyyətinin idarəetmə uçotunun və auditinin obyektlərinin tərkibinin dəqiqləşdirilməsi;

– cari və strateji investisiyaların idarəetmə uçotunun mövcud vəziyyətinin qiymətləndirilməsi;

– investisiya fəaliyyətini səciyyələndirən göstəricilərin maliyyə hesabatlarında əks etdirilməsinin mövcud qaydasının qiymətləndirilməsi və onun təkmilləşdirilməsi;

– investisiyanın auditinin aparılması metodikasının ayrı-ayrı elementlərinin və məzmununun əsaslandırılması;

– investisiya fəaliyyətinin idarəetmə uçotu və auditinin təkmilləşdirilməsi.

**Tədqiqatın predmeti və obyekti.** Tədqiqatın predmetini neft sənayesi müəssisələrinin investisiya fəaliyyətinin idarəetmə uçotunun və auditinin inkişafının nəzəri–metodoloji, metodiki və praktiki aspektləri, tədqiqatın obyektini isə neft sənayesi müəssisələrinin uçot–analitik informasiya sistemi təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Dissertasiya işinin nəzəri - metodoloji əsasını elmi dərk etmənin obyektiv prinsipləri, idarəetmə, investisiya fəaliyyətinin maliyyə və idarəetmə uçotunun və auditinin təşkili sahəsində xarici və ölkə iqtisadçı alimlərinin klassik və müasir tədqiqatlarında verilmiş konseptual qaydalar, investisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının mövcud qanunvericilik və normativ aktları, maliyyə hesabatlarının milli və beynəlxalq standartları, dövlət iqtisadi inkişaf və islahat proqramları təşkil edir. İnvestisiya fəaliyyətinin idarəetmə uçotu və auditi sahəsində toplanmış biliklərin və təcrübələrin öyrənilməsi, ümumiləşdirilməsi və qiymətləndirilməsi, neft və qazçıxarma müəssisələrinin investisiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi ehtiyatlarının aşkar olunması üzrə nəzarət-analitik və bilavasitə auditor prosedurlarının

həyata keçirilməsi və maliyyə informasiyalarının dürüstlüyünün qiymətləndirilməsi tədqiqatın metodikasını səciyyələndirir.

Faktiki materialların işlənməsi zamanı dialektik, problem-xronoloji, tarixi-müqayisəli, funksional-sistemli yanaşma, məntiqi, elmi ümumiləşdirmə, statistik təhlil kimi tədqiqat metodlarından istifadə olunmuşdur. Həmin metodların tətbiqi aparılmış təhlilin, nəzəri nəticələrin və praktiki təkliflərin əsaslandırılmasını təmin edir.

**Tədqiqatın mənbələri və informasiya bazası.** Tədqiqatın informasiya bazasını normativ-hüquqi xarakteri materiallar: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin statistik məcmuələri, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası Auditorlar Palatasının statistik məlumatları, habelə müxtəlif dövrü nəşrlərdə və informasiya mənbələrindəki (o cümlədən, İNTERNET sisteminin informasiya bazası) məlumatlar təşkil etmişdir.

**Tədqiqat işinin elmi yeniliyi.** Tədqiqatın elmi yenilikləri aşağıdakılardır:

– investisiya fəaliyyətinin idarəetmə uçotunun mahiyyətinə və onun obyektlərinin tərkibinin (investisiya resursları, xərclər, obyektlər və investisiya fəaliyyətindən iqtisadi səmərə) formalaşmasına yeni yanaşma əsaslandırılmışdır;

– strateji və cari tədqiqat obyektləri kəsiyində investisiya fəaliyyətinin idarəetmə uçotunun alt sistemlərinin təsnifatı hazırlanmış və idarəetmə uçotunun investisiya sisteminin məzmunu dəqiqləşdirilmişdir;

– investisiyanın idarəetmə uçotunun optimal sisteminin modeli tərtib edilmişdir;

– investisiya fəaliyyətinin idarəetmə uçotu sistemində strateji və cari informasiyanın formalaşdırılması üçün müəssisənin strategiyasını onun cari investisiya fəaliyyəti ilə uzlaşdırmağa imkan verən balanslaşdırılmış konkret göstəricilər sistemi təklif olunmuşdur;

– investisiya fəaliyyətinin uçotunun analitikliyinin artırılması məqsədi ilə təşkilata verilmiş investisiya-vergi kreditlərinin, kapital qoyuluşlarının maliyyələşdirilməsi mənbələrindən istifadənin, əməliyyatların idarəetmə uçotunun tövsiyyə olunan hesablarında əks etdirilməsi qaydası təklif edilir;

– investisiya fəaliyyətinin auditinin səmərəliliyinin yüksəldilməsi məqsədi ilə tətbiq olunan analitik prosedurların təkmilləşdirilməsi üzrə təkliflər verilmişdir.

– investisiya proqramının məqsədə uyğunluğunun auditi üzrə dörd komponentdən ibarət məqbul auditor riski modeli hazırlanmışdır;

– müəssisənin investisiya resruslarını, gələcəkdə onların formalaşmasının mümkünlüyünü qiymətləndirməyə imkan verən informasiyanın açıqlanması üçün investisiya strategiyasının həyata keçirilməsinin informasiya kartı tərtib edilmişdir;

**Dissertasiya işinin nəzəri və praktik əhəmiyyəti.** Dissertasiyanın əsas qaydaları, nəticələri və müəllif tərəfindən hazırlanmış təkliflər təsərrüfat subyektlərinin investisiya vəziyyətinin təhlili və qiymətləndirilməsi prosesində geniş istifadə olunmasına istiqamətlənmişdir ki, bu da, idarəetmə uçotunun daha səmərəli sisteminin yaradılmasına, idarəetmə xidməti üzrə analitik işlərinin keyfiyyətini yüksəltməyə, dürüst və dəqiq informasiya əldə etməyə və nəticə etibarı ilə müəssisənin investisiya fəaliyyətinin operativliyinin yüksəldilməsi üzrə optimal idarəetmə qərarlarının qəbul edilməsinə imkan verəcəkdir. Tədqiqatın nəticələrindən gələcəkdə iqtisadiyyatın digər sahələrində idarəetmə uçotunun və auditinin metodologiyasının inkişafı və metodikasının təkmilləşdirilməsi problemlərinin həllində istifadə oluna bilər.

**Tədqiqat işinin aprobasiyası və nəticələri.** Dissertasiya işi "İqtisadi təhlil və audit", "Mühasibat uçotu" kafedralarının birgə iclasında və Azərbaycan Dövlət İqtisad Univesrsitetinin elmi seminarında müzakirə edilmişdir. Dissertasiyanın mövzusu, əsas müddəaları və işdə irəli sürülən təkliflər, tövsiyyələr əsasında ümumi həcmi 3.5 ç.v. olan 8 məqalə (onlardan biri xaricdə nəşr olunmuşdur) və 5 tezis nəşr olunmuşdur. Daxili idarəetmə hesabatlarının və auditorun işçi sənədlərinin ayrı-ayrı formaları Neft şirkətinin tabeliyində olan müəssisələrin və "Caspian konsaltinq"audit şirkətinin işində praktiki olaraq istifadə olunmuşdur.

**İşin strukturu və həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticədən, 158 sayda ədəbiyyat siyahısından, ümumi həcmi159 səhifədən, o cümlədən,18 cədvəl, 1 şəkil və 4 əlavədən ibarətdir.

**Dissertasiyanın mündəricatı:**

**Giriş**

**I Fəsil. İnvestisiya fəaliyyətinin uçotu və auditinin təşkilinin nəzəri-metodoloji aspektləri**

1.1. İnvestisiya fəaliyyətinin uçotu və auditinin təşkili xüsusiyyətəri

1.2. İnvestisiya fəaliyyəti üzrə uçot və audit obyektlərinin nəzəri-metodoloji əsaslandırılması

1.3. İnvestisiya fəaliyyətini xarakterizə edən göstəricilər sistemi və onların maliyyə hesabatlarında əks etdirilməsi
**II Fəsil. İnvestisiya fəaliyyətinin uçotu və auditinin mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi**
2.1.İnvestisiya fəaliyyətinin muhasibat uçotunun təşkilinin mövcud vəziyyətinin təhlili
2.2. İnvestisiya fəaliyyətinin idarəetmə uçotunun təşkilinin qiymətləndirilməsi
2.3. İnvestisiya fəaliyyətinin auditi metodikasının qiymətləndirilməsi
**III Fəsil. İnvestisiya fəaliyyətinin uçotu və auditinin təşkilinin təkmilləşdirilməsinin prioritet istiqamətləri**
3.1. İnvestisiya fəaliyyətinin uçotu və auditinin təşkili prosedurlarının təkmilləşdirilməsi
3.2. Strateji investisiyaların uçotunun maliyyə hesabatlarının beynəlxalq standartlarına uyğunlaşdırılması.
**Nəticə**
**İstifadə edilmiş ədəbiyyat**
**Əlavələr**

## TƏDQİQATIN QISA MƏZMUNU

### 1. İnvestisiya fəaliyyətinin uçotu və auditinin təşkilinin nəzəri və praktiki problemləri.

İnvestisiya fəaliyyəti müəssisənin inkişafının strateji məqsədlərinə istiqamətlənmişdir. Məsələyə bu mövqedən yanaşaraq qeyd etmək lazımdır ki, investisiya fəaliyyəti prosesində qəbul ediləcək hər hansı bir qərar müəssisənin fəaliyyətinin əsas məqsədi ilə ziddiyyət təşkil etməməlidir. İnvestisiyanın və investisiya resurslarının formalaşdırılması sferasında hər bir idarəetmə qərarının hazırlanması zamanı alternativ imkanlar nəzərə alınmalıdır. Belə bir şəraitdə onların seçilməsi müəssisənin özü tərəfindən hazırlanan, investisiya strategiyasını və konkret investisiya siyasətini müəyyən edən meyarlar sisteminə əsaslanmalıdır.

Dissertasiya işində qeyd olunur ki, bütövlükdə müəssisənin maliyyə-təsərrüfat, o cümlədən, investisiya fəaliyyətinin məqsədəuyğunluğunun və onun nəticələrinin, müəssisənin maliyyə vəziyyətinin və fəaliyyətinin son nəticələrinin qiymətləndirilməsi müvafiq uçot informasiyasının şəffaflığından, tamlığından və operativliyindən bilavasitə asılıdır. Bununla əlaqədar olaraq istehsal və maliyyə resursları üzrə faktiki məlumtaları əldə etməyə,

müəssisənin əməliyyat, investisiya və maliyyə fəaliyyətini düzgün istiqamətləndirməyə və uzlaşdırmağa imkan verən sistemli mühasibat uçotunun, o cümlədən, onun alt sistemi hesab olunan idarəetmə uçotunun təşkilinin əhəmiyyəti vurğulanır.

İdarəetmə uçotunun mahiyyəti ilə əlaqədar aparılan araşdırmalar göstərir ki, investisiya fəaliyyətinin idarəetmə uçotunun mahiyyətinə yanaşmalar müxtəlifdir. S.M.Səbzəliyev, S.M.Qasımov, Q.Ə.Abbasov, V.M. Quliyev və b. belə hesab edir ki, idarəetmə uçotu təsərrüfat təcrübəsində istehsala məsrəflərin uçotu və məhsulun maya dəyərinin kalkulyasiya edilməsində tətbiq olunan sistemdir və həmin sistem çərçivəsində nəinki uçot məlumatları hazırlanır, həmçinin onların təhlili aparılır, proqnozlaşdırmaya, qərarın qəbul olunmasına, idarəetmənin informasiya ilə tam və vaxtında təmin edilməsi üzərində nəzarətə imkan verir. T.R.Karpova, R.N.Antoni, O.V.Kovalyova, N.P.Kondrakov, P.İ.Kamışanov, K.A.Kirsanov, O.E.Nikolaeva və başqaları belə hesab edir ki, maliyyə qoyuluşlarının uçotunun sərbəst sistemi kimi idarəetmə uçotu investisiya resursları, investisiya prosesləri və onun nəticələri haqqında informasiyanın işlənib hazırlanmasını, material və maliyyə resurslarının mövcudluğu və hərəkətinin, xərclərin və gəlirlərin, bütövlükdə müəssisə və eləcə də onun ayrı-ayrı bölmələri üzrə kənarlaşmaların, maliyyə nəticələrinin uçotunu səciyyələndirir.Beləliklə, idarəetmə uçotunun mahiyyəti ilə əlaqədar yanaşmaların ümumiləşdirilməsi əsasında belə bir fikir formalaşdırılır ki, investisiyanın idarəetmə uçotu əsaslandırılmış operativ, taktiki və strateji qərarların qəbul edilməsi prosesində müəssisə rəhbərliyinə və menecerlərə köməklik göstərmək məqsədilə müxtəlif metodlar və üsullarla müəssisə və onun bölmələri haqqında zəruri informasiyanın formalaşdırılması sistemidir.

Dissertasiya işində qeyd olunur ki, strateji xarakter daşıyan, müəssisənin gələcək cari xərclərini müəyyənləşdirən uzunmüddətli investisiya qərarlarının hazırlanması və qəbul olunması zamanı bir sıra şərtlər - investisiya mühitinin dəyişməsi səbəbindən investisiya qoyuluşunun nəticələri üzrə mümkün kənarlaşmalar, xarici və daxili amillər nəzərə alınmalı, investisiya layihələri üzrə pul axını proqnozlaşdırılmalı, investisiya layihələrinin həyata keçirilməsi mərhələləri üzrə xərclər qruplaşdırılmalı və qrup çərçivəsində qiymətləndirilməlidir. Həmin məsələlərin həlli işlərin aparılmasına və xərclərə təsirli nəzarəti, onların daha obyektiv qiymətləndirilməsini təmin edəcəklir.

Müəssisənin investisiya fəaliyyətini investisiya layihələrinin həyata keçirilməsi ilə eyniləşdirmək düzgün deyil. Bu, idarəetmə uçotu obyektlərinin çərçivəsini məhdudlaşdırır. Məsələnin mahiyyətinə bu prizmadan yanaşaraq dissertasiya işində belə bir fikir vurğulanir ki, idarəetmə uçotu sistemli yanaşma mövqeyindən nəzərdən keçirilməlidir və o, istənilən növ uçot informasiyasının formalaşması, ötürülməsi və istifadəsini nəzərdə tutur.

Müəssisənin fəaliyyətin səmərəliliyinin yüksəldilməsi rəqabət şəraitində maksimum mənfəət əldə etmək üçün xərclərin azaldılması mexanizmlərindən istifadə olunmasının zəruriliyi ilə əlaqədardır. V.T.Novruzov, İ.M. Abbasov, C.B. Namazova, R.N.Kazımov C. Robertson, E.A.Arens, C.K.Lobbek, A.A. Sitnikova, A.D.Şeremet və başqaları qeyd edir ki, audit müstəqil təftiş keyfiyyətinə malik olsa da, onun fəaliyyəti yalnız mühasibat və maliyyə hesabatlarının yoxlanması ilə məhdudlaşa bilməz. Həmin fikirlərin tədqiqi nəticəsində dissertasiya işində belə bir fikir əsaslandırılır ki, mühasibat uçotu nöqteyi nəzərindən hesabatın dürüstlüyünün təsdiq edilməsi ilə yanaşı eyni zamanda onun iqtisadi məzmunu mövqeyindən qiymətləndirilməsi, təşkilatın fəaliyyətinin fasiləsizliyinin mümkünlüyünün, eləcə də təşkilatın rəhbərliyinin işinin səmərəliliyinin qiymətləndirilməsi auditin məqsədini təşkil edir. Formulirovka və həll metodları üzrə bu üç istiqamət auditin məqsədlərini təmin edəcək analitik prosedurların, eləcə də nəzarətin mühüm elementi olan daxili auditin təkmilləşdirilməsini tələb edir.

## 2. İnvestisiya fəaliyyəti üzrə uçot obyektlərinin əsaslandırılması və göstəricilərin maliyyə hesabatlarında əks etdirilməsi

İqtisadiyyatın transformasiyası şəraitində investisiya istehsalın genişləndirilməsi, yeni sahələrin mənimsənilməsini nəzərdə tutur ki, bu da istehsalın səmərəliliyinin yüksəldilməsinə, təsərrüfat subyektlərinin maliyyə vəziyyətinin yaxşılaşmasına, onun fəaliyyət dairəsinin genişlənməsinə müsbət təsir göstərir. Bu baxımdan mümkün müvafiq risklər nəzərə alınmaqla sərmayə qoyuluşunun səmərəli istiqamətləri, maliyyələşdirmə mənbələri və variantları müəyyən edilməlidir. Sözü gedən məsələlər təsərrüfat subyektinin investisiya fəaliyyətinin spesifik problemlərini öyrənmədən qiymətləndirilə bilməz. Eyni zamanda milli iqtisadiyyatın bütün sahələrində birbaşa investisiyaların və kreditlərin sürətli artımı onların uçotu, auditi və təhlilinin əhəmiyyətini artırmışdır. Bütün bunlar investisiya, investisiya məhsulları, investisiya mühiti, investisiya obyekti və

digər anlayışların əsaslandırılmasını, investisiya fəaliyyətinin mühasibat uçotunun nəzəri metodoloji əsaslarının təkmilləşdirilməsini tələb edir.

Problemə düzgün yanaşma nəticəsində dissertasiya işində investisiyanın gələcəkdə mənfəət (gəlir) əldə etmək məqsədilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaiti, maddi və intellektual sərvət və maliyyə resruslarının istifadəsi ilə bağlı proses kimi nəzərdən keçirildiyi və bu vəziyyətin mühasibat uçotu sistemində uçot obyekti kimi "investisiya" anlayışının tətbiqi imkanlarını məhdudlaşdırdığı əsaslandırılır. Bundan başqa, investisiya və kapital qoyuluşları anlayışlarının eyniləşdirilməsi ilə bağlı fikirlərə tənqidi yanaşılaraq vurğulanır ki, kapital qoyuluşları gələcəkdə xalis mənfəət əldə etmək, maliyyə resurslarını istehsal aktivlərinə çevirmək məqsədi ilə iqtisadi resursların uzun müddətə yatırılmasıdır. Məsələ bu aspektdən nəzərdən keçirilərək qeyd olunur ki, "investisiya" anlayışı özünün məzmununa, tərkib "zənginliyinə" və daşıdığı məna yükünə görə "əsaslı vəsait qoyuluşu" anlayışından fərqlidir və genişdir. Çünki, əsas vəsait qoyuluşu investisiyanın tərkib hissələrindən biridir və investisiya, mütərəqqi proses baxımından innovasiyanı özündə birləşdirir.

Dissertasiya işində vurğulanır ki, mühasibat uçotu çərçivəsində investisiya fəaliyyəti obyektləri maddi-əşya formaları üzrə investisiya aktivləri və investisiya məhsulları kimi təsnifləşdirilir və konkret investisiya layihəsi çərçivəsində eyni əmlak növü həm investisiya resursu, həm də investisiya obyekti qismində çıxış etdiyindən həm istehlak oluna bilən və həm də investisiyanın həyata keçirilməsi dövründə yarana biləcək resursların bütün növləri müəssisənin investisiya resurslarına aid edilməlidir. Bu traktovkada investisiyanın iqtisadi mahiyyəti investisiya fəaliyyətinin iki sahəsinin– resurs sərfiyyatının və nəticə əldə olunmasının uyğunlaşdırılmasından ibarətdir.

İnvestisiya fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi prosesində müəssisənin cari investisiya imkanlarının onun strateji investisya məqsədlərinə uyğunluğunun tədqiqi məqsədi ilə dissertasiya işində xərc maddələri, xərc mərkəzləri, iş növləri və onların icra müddəti üzrə investisiya layihələrinin büdcələşdirilməsinin tətbiqinin zəruriliyi əsaslandırılaraq qeyd olunur ki, rəqabətli biznes mühitində müəssisənin uğurlu fəaliyyəti büdcələşdirmə, strateji planlaşdırma və idarəetmə uçotunun qarşılıqlı əlaqəsinin düzgün optimallaşdırılmasından çox asılıdır və bu qarşılıqlı əlaqə səmərəli təsərrüfatdaxili audit standartları əsasında daima izlənməlidir. Tərtib

edilmiş idarəetmə uçotunun optimal sistemi modeli aşağıdakı şəkildə verilmişdir (şəkil 1).




***Şəkil 1. İdarəetmə uçotunun optimal sistemi***

Dissertasiya işində belə bir fikir əsaslandırılır ki, investisiya layihəsinin səmərəliliyinin qiymətləndirilməsi üçün yalnız maliyyə göstəricilərindən istifadə edilməsi kifayət deyildir, müəssisənin maliyyə imkanlarının indikatorları kimi qeyri monetar göstəricilərdən istifadə olunması zəruridir və bu prosesdə elə göstəricilər seçilməlidir ki, onlar bütün səviyyələrdə menecmentin işinin səmərəliliyini xarakterizə edə bilsin və biznesin ümumi strategiyası ilə uzlaşsın. Bu məqsədlə müəllif tərəfindən tərtib edilmiş, müəssisənin strategiyasını onun cari investisiya fəaliyyəti ilə tam həcmdə əlaqələndirən, layihənin maliyyə, istehsal və informasiya meyarlarını, risklər nəzərə alınmaqla onun həyata keçirilməsinin mümkünlüyünü, strateji dəyərini, müxtəlif maraqların uzlaşdırılmasını, menecerlərin motivasiyasını, təşkilatın məqsədlərinə, vəzifələrinə və strategiyasına uyğunluğunu nəzərə alan balanslaşdırılmış göstəricilər sistemi təklif olunur. Müəllifə görə nəzərdən keçirilən layihələrinin qiymətləndirilməsini dəqiqləşdirmək üçün kəmiyyət qiymətləndirilməsinin meyar qrupları üzrə deyil, konkret meyar üzrə aparılması məqbul hesab edilə bilər. Qiymətləndirmədə istifadə olunan hər bir meyar üçün maksimum bal müəyyən edilərkən həmin meyarın müəssisə üçün əhəmiyyətliliyi nəzərə alınmalı, meyar qrupları üzrə orta qiymətlər toplanaraq yekun qiymət müəyyən olunmalı və daha çox bal alan investisiya layihəsi daha effektli hesab edilməlidir.

İnvestisiya fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı mühüm məsələlərdən biri də istifadəçilər üçün həmin fəaliyyətin maliyyə hesabatlarında dürüst, anlaşıqlı və tam açıqlanmasıdır. Təsərrüfat subyektinin investisiya fəaliyyətinin maliyyə uçotu məsələləri pul vəsaitlərinin hərəkəti, maliyyə

alətləri, maliyyə hesabatları və konsolidə edilmiş maliyyə hesabatları, asılı təsərrüfat cəmiyyətlərinə investisiyaların uçotu, birgə fəaliyyət, daşınmaz əmlaka investisiyalar müvafiq milli mühasibat uçotu standartlarının (MMUS) və maliyyə hesabatlarının beynəlxalq standartlarının (MHBS) müqayisəli təhlili əsasında nəzərdən keçirilməlidir. Bu məqsədlə dissertasiya işində kapital qoyuluşlarının həyata keçirilməsi üzrə investisiya xərclərinin əks etdirilməsi haqqında informasiyanın analitik uçotda və maliyyə hesabatında açıqlanması qaydası verilmişdir.

Sözügedən məsələ ilə əlaqədar fikirlərin davamı kimi qeyd olunur ki, mühasibat balansının statik xarakter daşıması, balansda göstərilən cari aktivlərin və öhdəliklərin məbləğinin reallığı tam əks etdirməməsi səbəbindən müəssisənin ödəmə qabiliyyətini düzgün qiymətləndirmək mümkün deyildir. Bu baxımdan, mühasibat balansı və mənfəət və zərər haqqında hesabatla yanaşı pul vəsaitlərinin hərəkəti haqqında hesabatın (PVHH) məlumatlarından da istifadə olunmalıdır, daha doğrusu, ənənəvi likvidlik göstəricilərini ödəmə qabiliyyəti əmsalı, özünümaliyyələşdirmə əmsalı, Biver əmsalı, qısamüddətli öhdəliklərin pul vəsaiti daxilolmaları ilə örtülməsi əmsalı, özünü maliyyələşdirmə potensialı, borc səviyyəsi əmsalı, borc potensialı, dividendlərin örtülməsi əmsalı və b. göstəricilərlə tamamlamaq məqsədəuyğundur. Məsələyə bu aspektdən yanaşaraq həmin hesabatın birbaşa metod əsasında tərtib olunmasının zəruriliyi vurğulanır.

### 3. İnvestisiya fəaliyyətinin idarəetmə uçotunun və auditinin təşkilinin müasir vəziyyətinin qiymətləndirilməsi

Müasir şəraitdə investisiya fəaliyyətinin, onun məqsədə uyğunluğunun və nəticələrinin qiymətləndirilməsi mühasibat uçotunun alt sistemi hesab olunan idarəetmə uçotunun təşkilindən və həmin uçotda istifadəçilər üçün zəruri, dürüst informasiyanın əks etdirilməsindən çox asılıdır. Bununla əlaqədar tədqiqat işində qeyd edilir ki, bütövlükdə müəssisə və eləcə də onun struktur bölmələrində baş vermiş, baş verən və baş verəcək xərclər, onların nəticələri idarəetmə uçotunun mühüm obyektlərinə daxildir. İnvestisiya xərcləri investisiya aktivlərinin yaradılmasına yönəldildiyindən investisiya məhsullarının yaradılması üzrə xərclər investisiya xərclərinin tərkibinə daxil edilməlidir. Faktiki investisiya xərclərinin maliyyə uçotunun təşkili təcrübəsi göstərir ki, qeyd olunan xərclər bütövlükdə tikinti üzrə və onun tərkibinə daxil olan ayrı-ayrı obyektlər üzrə eyniləşdirilir və ümumiləşdirilir. Milli Hesablar Planına uyğun olaraq obyektlərin tikintisi və əldə olunmasına faktiki xərclər 103 “Qeyri-maddi aktivlərlə bağlı

məsrəflərin kapitallaşdırılması", 113 "Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması", uzunmüddətli maliyyə qoyuluşları 181 "Ödənişə qədər saxlanılan uzunmüddətli investisiyalar", 182 "Uzun müddətli verilmiş borclar", 183 "Digər üzünmüddətli investisiyalar", 151 "Asılı müəssisələrə investisiyalar", 152 "Birgə müəssisələrə investisiyalar" (həmin hesablar üzrə "Pay və səhmlər", "Borc qiymətli kağızlar", "Verilmiş borclar" və s. subhesablarının açılması məqsədə uyğundur), qısamüddətli maliyyə qoyuluşları 231 "Satış məqsədilə saxlanılan qısamüddətli investisiyalar", 232 "Ödənişə qədər saxlanılan qısamüddətli investisiyalar", 234 "Dəgər saxlanılan qısamüddətli investisiyalar" saylı hesablarda uçota alınır. Obyektin mülkiyyət hüquqi investora keçdiyi halda tam ödənilməmiş maliyyə qoyuluşu obyektləri (borclardan savayı) ödənilməmiş məbləğin balansın öhdəliklər bölməsində kreditor borcları maddəsində əks etdirilir, balansın aktivində isə müqavilə üzrə onların əldə olunmasına çəkilən faktiki xərclərin tam məbləğində əks etdirilir. Digər hallarda maliyyə qoyuluşu obyektlərinin alınması hesabına aid edilən məbləğlər balansın aktivində debitorlar maddəsində əks etdirilir.

Balansın tərtib olunması zamanı qiymətli kağızlara vəsait qoyuluşu hesabatda maliyyə ilinin sonuna bazar dəyəri ilə əks etdirilir. Ehtiyatın yaradılması 731 "Sair əməliyyat xərcləri" hesabının "Qiymətdən düşmə üzrə xərclər" subhesabının debetində, 332 "Məzənnə fərqləri üzrə ehtiyat" hesabının kreditində əks etdirilir. Əgər onun bazar dəyəri mühasibat uçotunda qəbul olunmuş dəyərdən aşağıdırsa, onda hesabat dövrünün sonunda qiymətli kağızlara qoyuluşun dəyərdən düşməsi üzrə ehtiyat məbləğində düzəliş aparılır: debet 332 "Məzənnə fərqləri üzrə ehtiyat", kredit 731 "Sair əməliyyat xərcləri". Əgər ilin yekunlarına görə qiymətli kağızların bazar dəyəri yüksəlmişdirsə, onda, yaradılmış fonda artım məbləğində düzəliş edilir: debet 332 "Məzənnə fərqləri üzrə ehtiyat", kredit 611 "Sair əməliyyat gəlirləri". Əgər ilin sonuna qədər qiymətli kağızlara qoyluşların dəyərdən düşməsi ilə bağlı yaradılmış ehtiyat tam istifadə olunmazsa, onda xərclənməmiş məbləğ ilin sonunda mühasibat balansı tərtib edilərkən müvafiq ilin maliyyə nəticələrinə aid edilir (debet 332 "Məzənnə fərqləri üzrə ehtiyat", 331 "Yenidən qiymətləndirmə üzrə ehtiyat", kredit 611 "Sair əməliyyat gəlirləri", 631 "Maliyyə gəlirləri").

Məlumdur ki, təsərrüfat subyektinin fəaliyyəti və onun nəticələrində maraqları olan istifadəçilər həmin məsələlərlə bağlı informasiyanın obyektivliyinə əmin olmalıdırlar. Məsələyə bu konteksdən yanaşılaraq dissertasiya işində belə bir fikir əsaslandırılır ki, investisiya fəaliyyətinin

uçotu obyektləri eyni zamanda idarəetmə auditinin obyektləri qismində də nəzərdən keçirilə bilər. Konkret investisiya proqramlarının həyata keçirilməsi müxtəlif maliyyələşmə mənbələri hesabına həyata keçirilir. Bu, investisiya fəaliyyətinin maliyyə bazarları ilə əlaqələrini şərtləndirir. Buna görə də investisiya layihələrinin auditi prosesində kommersiya təşkilatının fəaliyyət göstərdiyi xarici mühit və hər şeydən əvvəl, kapital və pul vəsaitləri bazarı tədqiq olunmalıdır. Bunlar nəzərə alınmaqla dissertasiya işində belə bir fikir əsaslandırılır ki, investisiya fəaliyyətinin auditi prosesində maliyyələşdirmə növləri və pul axınlarının növləri üzrə investisiya proqramlarında pul vəsaitlərindən istifadənin səmərəliliyi qiymətləndirilməli, investisiya fəaliyyəti üzrə konkret nəticələrin əldə edilməsi müəssisənin əməliyyat fəaliyyətində əldə olunan uğurlarla sıx qarşılıqlı əlaqədə nəzərdən keçirilməlidir.

### 4. İnvestisiya fəaliyyətinin uçotu və auditinin təşkilinin təkmilləşdirilməsinin prioritet istiqamətləri

İdarəetmə uçotu sistemini müəssisənin fəaliyyətinin müxtəlif istiqamətlərini səciyyələndirən göstəricilərin fasiləsiz ümumiləşdirilməsi prosesi kimi xarakterizə etmək olar. Lakin iqtisadi təhlil və qiymətləndirmə nöqteyi nəzərindən ümumiləşdirmə səviyyəsinin yüksək olması göstəricilərin analitikliyinin azalması ilə nəticələnəcəkdir. Məsələyə bu nöqteyi nəzərdən yanaşılaraq dissertasiya işində müəssisənin idarə olunmasının strateji məqsədlərinin həyata keçirilməsinə imkan verən idarəetmə hesabatının tərtib olunmasının zəruriliyi vurğulanır və qeyd olunur ki, həmin hesabat müəssisənin ötən dövr ərzində investisiya fəaliyyətinin faktiki nəticələrini, eyni zamanda gələcək dövrə onun fəaliyyətinin plan və proqnoz göstəricilərini özündə əks etdirməlidir. Bu vəzifələrin həlli investisiyanın idarəetmə uçotu və auditi metodikasının təkmilləşdirilməsini tələb edir.

Dissertasiya işində təsərrüfat subyektlərinin investisiya fəallığının stimullaşdırılması məqsədi ilə onlara investisiya vergi kreditinin verilməsinin və bununla bağlı müqavilələr üzrə hesablaşmalar haqqında informasiyanın formalaşmasının zəruriliyi qeyd olunmuşdur. Sözü gedən problemin respublikanın təcrübəsində istifadə olunmaması, uçot-vergi sistemi üçün mühüm əhəmiyyət kəsb etdiyi vurğulanmaqla həmin məsələnin həlli kimi hesablar planında sərbəst 409 “Uzunmüddətli investisiya vergi krediti” və 508 “Qısamüddətli investisiya vergi krediti” hesablarının və həmin hesablar üzrə iki subhesabın – “Normativ çərçivəsində toplanmış kredit məbləği” və “Normativdən artıq toplanmış kredit məbləği” subhesablarının açılması,

analitik uçotun isə hər bir kredit müqaviləsi üzrə aparılması təklif edilir. Həmin hesablar üzrə qalıq investisiya vergi krediti üzrə borcları əks etdirir.

Dissertasiya işində qeyd olunur ki, konkret layihənin hazırlanması və həyata keçiriməsi müəyyən şərtlərin (o cümlədən, onun cari investisiya imkanlarının və strateji məqsədlərinin) nəzərə alınmasını tələb edir və bu vəzifə investisiyanın hər bir fazası və mərhələsi üçün xərclərin və işlərin büdcələşdirilməsi vasitəsi ilə təmin oluna bilər. Toplanmış informasiyanı sistemləşdirmək üçün idarəetmə uçotu hesablarının quruluşu aşağıdakı kimi təklif edilir: müvafiq olaraq birinci rəqəm əməliyyatın növünü (planlaşdırılan – 0 və ya faktiki - 1), ikinci rəqəm investisiya proqramının nömrəsini, üçüncü rəqəm investisiya layihəsinin nömrəsini, dördüncü, beşinci və altıncı rəqəm sintetik hesabın nömrəsini əks etdirir. Bu mövqedən çıxış edərək, məsələn, 1 saylı investisiya proqramı çərçivəsində həyata keçirilən 2 saylı investisiya layihəsinin maliyyələşdirilməsi üçün lazım olan məbləğdə uzunmüddətli kreditin alınması haqqında planlaşdırılan əməliyyat idarəetmə uçotu hesablarında aşağıdakı kimi əks etdiriləcəkdir: debet 012223 və kredit 012401.

Dissertasiya işində xərclərin uçotu üçün maliyyə hesabatının sərbəst 22- ci "Pul vəsaitləri və onların ekvivalentləri" bölməsindən istifadə olunması və verilən şərtlər əsasında planlaşdırılan kassa xərclərinin 012221, faktiki kassa xərclərinin 112221 saylı hesabda uçota alınması təklif edilir. Daha sonra, kassa istifadəsinin konkret istiqamətlərinin uçotu məqsədi ilə "Avadanlığın alınması", "Quraşdırma işləri" subhesablarının, cari investisiya fəaliyyətinin maliyyələşdirilməsi mənbəyi kimi xalis mənfəətdən (vergi tutmadan sonra mənfəətdən) istifadənin üçotu üçün hesablar planında sərbəst hesabın–345 "Vergitutmadan sonra mənfəətin istifadəsi" hesabının açılması təklif edilir. Bu zaman əvvəldə verilmiş şərti misal üzrə investisiya fəaliyyətinin həyata keçirilməsinə xalis mənfəətdən istifadə plan üzrə 012345, faktiki istifadə isə 112345 saylı hesabda əks etdiriləcəkdir. Müəssisənin investisiya layihələri çərçivəsində pul vəsaitlərinin bankda açılmış ayrıca hesabda saxlanılması məqsədə uyğundur. Bu məqsədlə konkret investisiya layihəsinin həyata keçirilməsi üçün ayrılmış pul vəsaitinin hərəkətinin uçotu üçün 224 "Tələblərə əsasən verilən digər bank hesabları" hesabının 224–4 "İnvestisiya hesabı" subhesabından istifadə olunması təklif edilir.

İnvestisiya layihələrinin qiymətləndirilməsi məqsədi ilə müəllif tərəfindən təklif olunan maliyyələşdirmə mənbələri üzrə planlaşdırılan və faktiki əməliyyatların siyahısı, investisiya layihəsi üzrə vəsaitlərdən istifadənin

mühasibat uçotunda əks etdirilməsinin qaydası və planlaşdırılan və faktiki əməliyyatların əks etdirilməsindən sonra konkret tarixə investisiya layihəsi üzrə büdcənin yerinə yetirilməsi haqqında hesabat 1 və 2 saylı cədvəllərdə verilmişdir (rəqəmlər şərtidir).

Cədvəl 1

**Müəssisədə investisiya layihəsi üzrə planlaşdırılan və faktiki əməliyyatların uçotda əks etdirilməsi**

| Sıra № | Əməliyyatların məzmunu | Məbləğ min man | Hesabların müxabirləşməsi | |
|---|---|---|---|---|
| | | | debet | kredit |
| 1 | Maliyyələşdirmənin plan mənbələri əks etdirir:<br>-maliyyələşdirmə mənbəyi kimi vergi tutmadan sonra mənfəət<br>-xüsusi vəsaitin investisiya hesabına köçürülməsi<br>-bankın uzunmüddətli krediti | 340<br>340<br>85 | 012341,012333<br>012224-4<br>012224-4 | 012345<br>012223<br>012401 |
| 2 | Planlaşdırılmış kassa xərclərinin əks etdirilməsi:<br>-avadanlıqların alınmasına<br>-quraşdırma işlərinə | 375<br>50 | 012220-1<br>012220-2 | 012224-4<br>012224-4 |
| 3 | Faktiki maliyyələşdimə mənbələrinin əks etdirilməsi:<br>-malliyyələşdirmə mənbəyi kimi vergitutmadan sonra mənfəət<br>- xüsusi vəsait investisiya hesabına köçürülmüşdür | 170<br>170 | 112341,112343<br>112224-4 | 112345<br>112223 |

| | | | | |
|---|---|---|---|---|
| | -uzunmüddətlə bank kreditinin köçürülməsi | 40,5 | 112224-4 | 112404 |
| 4 | İnvestisiya hesabından avadanlıqların alınması üçün mal göndərənlərə avans ödənilmişdir, daha doğrusu avadanlıqların alınmasına kassa xərcləri edilmişdir | 181 | 112221-1 | 112224-4 |

Cədvəl 2

**İnvestisiya layihəsi üzrə büdcənin yerinə yetirilməsi haqqında hesabat (min man.)**

| Hesab №-si | Resursların və mənbələrin adı | Plan üzrə | | Faktiki | |
|---|---|---|---|---|---|
| | | debet | kredit | debet | kredit |
| 345 | İnvestisiya layihəsinə yönəldilmiş vergitut-madan sonra mənfəət | - | 340 | - | 170 |
| 224-4 | İnvestisiya hesabında pul vəsaiti | 425 | 425 | 210,5 | 181 |
| 401 | Uzunmüddətli bank krediti | - | 85 | - | 40,5 |
| 221-1 | Avadanlığın alınması üzrə kassa xərcləri | 375 | - | 181 | - |
| 221-2 | Quraşdırma işləri üzrə kassa xərcləri | 50 | - | - | - |

İnvestisiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi idarəetmə (daxili) auditinin təkmilləşdirilməsini tələb edir. Bu onunla əlaqədardır ki, investisiya fəaliyyətinin idarəetmə auditi yalnız investisiya layihəsinin məqsədəuyğunluğunun və əsaslandırılması səviyyəsinin qiymətləndirilməsini təmin etmir, eləcə də, investor tərəfindən səmərəli investisiya qərarlarının qəbul edilməsi ilə əlaqədar investisiya təkliflərinin formalaşdırılması, layihələrin hazırlanması, həyata keçirilməsi və onun nəticələrinin qiymətləndirilməsinə imkan verir. Həmin məsələlərin həlli üzrə tətbiq olunan auditor prosedurunun tərkibi fərqlidir.

Tədqiqat işində investisiya fəaliyyətinin auditinin birinci mərhələsində prosedurların yerinə yetirilməsinin nəticələrini əks etdirmək üçün müəllif tərəfindən hazırlanmış "İnvestisiya fəaliyyətinin inkişafı üçün yoxlanlan müəssisənin fəaliyyətinin xarici və daxili şəraitinin qiymətləndirilməsi" işçi sənədi, ikinci mərhələdə investisiya layihələri göstəricilərinin dürüstlüyü və onların investor tərəfindən müəyyən olunmuş meyarlara uyğunluğu qiymətləndirmək üçün "Audit olunan investisiya layihəsinin müəyyən olunmuş meyarlara uyğunluğunun qiymətləndirilməsi" işçi sənədindən istifadə təklif olunur. Həmin işçi sənədində audit olunan investisiya layihələrinin qiymətləndirilməsinin meyarlar qrupunun və ayrı-ayrı meyarların adı, bal ifadəsində ideal və ya ona yaxın tələbləri əks etdirən qiymətləndirmə normativi, bal ifadəsində qiymətləndirmə və həmin qiymətləndirməni təmin edən arqumentləri əks etdirilir.

Konkret investisiya layihəsi çərçivəsində investisiyanın mənimsənilməsi dərəcəsi layihə üzrə proqnozlaşdırılan işlərin faktiki olaraq yerinə yetirilməsi ilə əlaqəli təhlil olunmalıdır. Tədqiqat işində auditorların yerinə yetirilmiş işlər haqqında məlumatlarının müəllif tərəfindən təklif edilən "Konkret investisiya layihəsi üzrə investisiya tədbirlərinin yerinə yetirilməsinin qiymətləndirilməsi" işçi sənədində ümumiləşdirilməsi əsaslandırılmışdır.

Dissertasiya işində vurğulanır ki, investisiya layihəsinin həyata keçirilməsinin auditi zamanı layihə üzrə tədbirlərin vaxtında həyata keçirilməsi, maliyyə resurslarından səmərəli istifadə olunması, investisiyanın ötürülməsi üçün pul axınlarının kifayətliliyi və qoyulmuş vəsait müqabilində proqnozlaşdırılmış nəticənin əldə olunması qiymətləndirilir. Bu məqsədlə auditor tərəfindən investisiya layihələrinin həyata keçirilməsinin bütün mərhələlərində faktiki əldə edilmiş və proqnozlaşdırılmış göstəricilər müqayisə olunmalıdır ki, aparılan müqayisənin nəticələri müəllif tərəfindən tərtib olunmuş "İnvestisiya layihəsi üzrə maliyyə resurslarından istifadənin qiymətləndirilməsi" işçi sənədində əks etdirilməsi təklif edilir.

Məlumdur ki, investisiya layihələri üzrə tədbirlərinin həyata keçirilməsi müəyyən xərclərlə müşayət olunur. Məsələyə bu aspektdən yanaşma əsasında faktiki və proqnozlaşdırılmış xərclərin müqayisə edilməsi üçün auditor tərəfindən toplanmış müvafiq məlumatların müəllif tərəfindən hazırlanmış "İnvestisiya layihəsi üzrə xərclərin qiymətləndirilməsi" işçi sənədində ümumiləşdirilməsi təklif olunur.

İnvestisiya fəaliyyətinin mühüm xüsusiyyətlərindən biri bu sahədə spesifik risk növlərinin mövcudluğudur. Dissertasiya işində auditor riskinin

dörd komponentdən ibarət olmasını əsaslandırılır: müəssisənin investisiya fəaliyyəti ilə əlaqədar daxili və xarici şəraitinin düzgün qiymətləndirilməməsi riski (RQ), qeyri səmərəli invetisiya proqramının hazırlanması riski (RQİ), müəssisənin rəhbərliyi tərəfindən əsas investisiya proqramlarının yerinə yetirilməməsi riski (RTY) və ciddi kənarlaşmaların müəyyən olunmaması riski (RKM). Kəmiyyətcə qiymətləndirməni aparmaq üçün məqbul hesab olunan auditor riskinin (MAR) aşağıdakı modelindən istifadə olunması təklif edilir:

$$MAR = RQ \times RQİ \times RTY \times RKM$$

Dissertasiya işində qeyd edilir ki, investisiya fəaliyyətinin auditi prosesində investisiya layihələri variantlarının, onların alternativliyinin müqayisəli qiymətləndirilməsi, müəssisənin potensial imkanları baxımından optimal variantın seçilməsi və qəbul ediləcək idarəetmə qərarının əsaslandırılması mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə auditor prosedurlarının yerinə yetirilməsi prosesində müqayisə, ekspert qiymətləndirmə, statistik (xərclərin örtülməsinin qiymətləndi-rilməsi və optimallaşdırılması), sistemli təhlil, SWOT–təhlil və digər metodlardan istifadə oluna bilər və investisiya layihələrinin qiymətləndirilməsi zamanı əksər hallarda xalis cari dəyər (Net Present Value–NPV), gəlirlik indeksi (Profitabilitu İndex –PI), daxili gəlirlik norması (İnternal Rate of Retum –IRR), ödənmə müddəti (PayBack Period– PP) və investisiyanın mühasibat rentabelliyi (Accounting Rate of Return –AROR) kimi ənənəvi maliyyə indikatorlarından istifadəyə üstünlük verilir.

Dissertasiya işində vurğulanır ki, idarəetmə uçotunun strateji investisiya sisteminin yaradılması və işlənməsinin zəruriliyi müəssisədə müxtəlif inkişaf strategiyalarının həyata keçirilməsi mərhələsində meydana çıxır. Bu mərhələdə onun investisiya fəallığı və investisiya fəaliyyətinin diversifikasiya formaları proqnoz xarakter daşımalıdır, müəssisənin investisiya resurslarını, eləcə də onların gələcəkdə formalaşmasının mümkünlüyünü qiymətləndirməyə imkan verən informasiyanın istifadəçilərə təqdim olunmasını təmin etməlidir. Belə informasiya aşağıdakı bölmələri özündə əks etdirən "Müəssisənin strategiyasının həyata keçirilməsinin informasiya kartı" sənədi formasında təqdim oluna bilər:

I. "Müəssisənin ilkin parametrlərinin xarakteristikası". Bu bölmədə müəssisənin yaranma tarixi və ya fəaliyyət göstərdiyi dövrü səciyyələndirən göstəricilər, fəaliyyət növləri, nizamnamə kapitalının həcmi, məhsul (iş, xidmət) satışından pul gəliri, struktur bölmələrin sayını səciyyələndirən göstəricilər əks olunur;

II. “Müəssisənin inkişaf dövrü üzrə strategiyası”. Burada konkret vaxt dövründə müəssisənin inkişafı strategiyası göstərilir;

III. “Strateji göstəricilərin kəmiyyətcə qiymətləndirilməsi”. Burada inkişafın strateji istiqamətlərini müəyyən edən göstəricilərin dəyişməsini (pul gəlirinin, biznes vahidlərinini, aktivlərin və bölüşdürülməmiş mənfəətin artım proqnozu) əks etdirən konkret kəmiyyət göstəriciləri göstərilir;

IV. “İnkişaf strategiyasının həyata keçirilməsinin nəticələri üzrə müəssisənin parametrlərinin xarakteristikası”. Bu bölmədə seçilmiş strategiyanın həyata keçirilməsinin sonunda əsas göstəricilərin siyahısı və onların kəmiyyət xarakteristikası verilir.

V. “Seçilmiş strategiyanın həyata keçirilməsi dövründə müəssisənin investisiya istiqamətlərinin xarakteristikası”. Burada strategiyanın həyata keçirilməsi illəri üzrə kapital qoyuluşunun həcmi və xarakteristikası əks olunur;

VI. “İllər üzrə müəssisənin strategiyasının həyata keçirilməsi üzrə aralıq göstəricilərin xarakteristikası”. Bu bölmədə strategiyanın həyata keçirildiyi illər üzrə göstəricilərin kəmiyyət xarakteristikası öz əksini tapır;

VII. “Strategiyanın həyata keçirilməsi dövründə investisiyanın maliyyələşdirmə mənbələrinin müəyyən edilməsi”. Burada strategiyanın həyata keçirilməsi illəri üzrə xüsusi və borc vəsait mənbələrinin kəmiyyət xarakteristikası göstərilir.

Beləliklə, müəssisənin investisiya strategiyasının onun inkişaf strategiyasına uyğunluğunun və investisiya fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi məqsədi ilə təklif olunan auditor prosedurları və onların nəticələrini özündə əks etdirən auditor işçi sənədləri toplanmış informasiya əsasında investisiya layihələrinin mühüm iqtisadi göstəricilərinin analitik qiymətləndirilməsini, investisiya layihələrinin hazırlanması, qiymətləndirilməsi və həyata keçirilməsinin bütün mərhələlərində əsaslandırılmış nəticə və idarəetmə təkliflərinin hazırlanmasını təmin edəcəkdir.

Dissertasiya işinin sonunda elmi, metodoloji və praktiki əhəmiyyətə malik ümumiləşdirilmiş nəticə və təkliflər verilmişdir.

**Dissertasiya işinin əsas müddəaları və işdən irəli gələn praktiki təkliflər dərc edilmiş aşağıdakı elmi məqalələrdə və tezislərdə öz əksini tapmışdır:**

1.D.D.Fərəcova. İnkişaf etmiş ölkələrdə investisiya prosesinin tənzimlənməsi və stimullaşdırılması mexanizmləri. İqtisadiyyat və audit jurnalı, № 9 Bakı 2008.s.6-10.

2.D.D.Fərəcova.Kommersiya banklarında maliyyə nəticələrinin təhlili. ''Odlar Yurdu" Universitetinin Elmi və Pedaqoji xəbərləri.Bakı 2008. №26 s.45-53.

3.D.D.Fərəcova.İnvestisiya risklərinin səviyyəsinin aşağı salınmasının təhlili.2008-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetində yerinə yetirilmiş büdcə təyinatlı elmi-tədqiqat işlərinin yekununa həsr edilmiş elmi-praktiki konfransın tezisləri.Bakı, 2009, s.93-94s

4.D.D.Fərəcova. İnvestisiya proseslərinin aktivləşdirilməsində əhalidən cəlb olunan vəsaitlərin xüsusiyyətləri. Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İntstitutu, Respublika Elmi-Praktik konfransının materialları, Bakı 2010 s.635-636

5.D.D.Fərəcova.İnvestisiya fəaliyyətində ucot obyektlərinin tərkibinin əsaslandırılması və qiymətləndirilməsi."Odlar Yurdu" Universitetinin Elmi və Pedoqoji xəbərləri, Bakı 2012, № 33 s.64-67

6.D.D.Fərəcova.İnvestisiya xərclərinin uçotu və maliyyə hesabatının auditinin metodiki problemləri.Milli İqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi, Beynəlxalq elmi-praktik konfransın materialları, Bakı 27-28 iyun-2012 s.848-851.

7.D.D.Fərəcova.İnvestisiya fəaliyyətinin idarəetmə auditinin təşkili problemləri.Azərbaycan Elmi -Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi-Əsərləri. Bakı 2013,s.133-137. № 2078-6042

8.D.D.Fərəcova.Cari investisiya sisteminin təşkili problemləri. Bakı Biznes Universiteti "Audut" jurnalı№ 3 Bakı 2013. s.40-44

9.Д.Д.Фараджева.Оценка текущей инвестиционной системы управленческого учета. Журнал " Экономика и предпринимательство" № 8. Москва 2013 г. Стр. 364-367.

10.D.D.Fərəcova.İnvestisiya fəaliyyətinin idarəetmə auditi prosedurlarının əsaslandırılması. Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu, Elmi-əsərlər №3, 2013, s.154-160.

11.D.D.Fərəcova.Regionlarda investisiya mühitinin inkişaf etdirilməsi problemləri. 2011-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetində yerinə

yetirilmiş büdcə təyinatlı elmi-tədqiqat işlərinin yekununa həsr edilmiş elmi-praktiki konfransın tezisləri.Bakı, 2012, 65-66 s.

12.D.D.Fərəcova.Kommersiya təşkilatının idarəetmə uçotunun investisiya sisteminin təhlili. 2012-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetində yerinə yetirilmiş büdcə təyinatlı elmi-tədqiqat işlərinin yekununa həsr edilmiş elmi-praktiki konfransın tezisləri.Bakı, 2013, s.44-45

13.D.D.Fərəcova.İdarəetmə uçotunun cari investisiya sisteminin təşkil edilməsi metodları. 2013-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetində yerinə yetirilmiş bödcə təyinatlı elmi-tədqiqat işlərinin yekununa həsr edilmiş elmi-praktiki konfransın tezisləri.Bakı, 2014, s.67

14.H.A.Cəfərli, M.Ə.Əhmədov, D.D.Fərəcova. Məhsulun (iş və xidmətin) maya dəyərinin məsrəf maddələri üzrə təhlili. Metodik vəsait."İqtisad Universiteti" Nəşriyyatı, Bakı,2014, 45s.

**Дильбар Дашдемир гызы Фараджева**

## Пути совершенствования учета и аудита инвестиционной деятельности предприятий


## РЕЗЮМЕ

Диссертация посвящена исследованию вопросов методики управленческого учета и аудита инвестиционной деятельности, состоит из введения, трех глав, выводов и списка литературы. Во введении обоснованы актуальность темы исследования, определен уровень изученности проблемы, сформулированы цель, задачи, предмет исследования, научная новизна и практическая значимость результатов проведенного исследования.

В первой главе диссертации «Теоретико-методологические аспекты организации учета и аудита инвестиционной деятельности» раскрыты теоретические и методологические основы учета и аудита инвестиционной деятельности предприятий, обоснованы объекты учета и показатели этой деятельности в финансовой отчетности.

Во второй главе «Анализ и оценка состояния учета и аудита инвестиционной деятельности» рассмотрено современное состояние организации учета и аудита инвестиционной деятельности, выявлены недостатки и трудности, имеющие место при проведении управленческого учета и внутреннего аудита.

В третьей главе «Приоритетные аспекты совершенствования организации учета и аудита инвестиционной деятельности» обосновано, что применяемая система управленческого учета и аудита неполностью характеризует все аспекты инвестиционной деятельности предприятия, необходимые для принятия объективных управленческих решений по инвестиционным проектам. Исходя из этого, разработаны и выдвинуты предложения по дальнейшему совершенствованию и улучшению методики управленческого учета инвестиционной деятельности, рассмотрены источники, этапы, методы и процедуры аудита. Для отражения результатов аудита рекомендован ряд аудиторских рабочих документов по оценке использования финансовых ресурсов, внедрению инвестиционных мероприятий и расходов по инвестиционным проектам. Предложены пути совершенствования системы показателей и методики оценки инвестиционных проектов и риска. В конце работы сформулированы выводы, полученные в результате исследования, выдвинуты предложения и рекомендации

**Dilbar Dashdamir Farajova**

# Ways of improving accounting and auditing investment activities of enterprises

## SUMMARY

Dissertation is devoted to the study issues of accounting management methods and auditing investment activities. It consists of an introduction, three chapters, conclusions and list of literature. In the introduction is justified the actuality of the research topic, is defined the level of knowledge of the problem, are formulated purpose, objectives, subject of study, scientific novelty and practical significance of the results of the study.

In the first chapter of the dissertation “Theoretical and methodological aspects of the organization of accounting and auditing investment activities” are opened theoretical and methodological basis of accounting and auditing investment activities of enterprises, are justified accounting objects parameters of this activity in the financial statements.

In the second chapter “Analysis and assessment of the accounting and auditing investment activities” is reviewed modern condition of accounting and auditing investment activities, are identified disadvantages and difficulties that occur during the management accounting and internal audit.

In the third chapter “Priority aspects of improving the organization of accounting and auditing investment activities” is proved that applied system of management accounting and auditing is not fully characterize all aspects of the investment activity of the enterprise, necessary for making objective decisions on the management of investment projects. Based on this are designed and put forward suggestions to further enhance and improve the methods of management accounting investment activities, are reviewed sources, stages, methods and audit procedures. In order to reflect of audit results are recommended a number of audit working documents on assessment of utilization financial resources, implementation of investment measures and expenses of investment projects. Are proposed ways of improving the system of indicators and methods of evaluation of investment projects and risk. At the end of the dissertation are formulated findings obtained as a result of studies, are pushed suggestions and recommendations.

Çapa imzalanıb: 22.07.2015.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ**
**ЭКОНОМИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

**НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИЙ ИНСТИТУТ**
**ЭКОНОМИЧЕСКИХ ИССЛЕДОВАНИЙ**

---

*На правах рукописи*

**ДИЛЬБАР ДАШДЕМИР гызы ФАРАДЖОВА**

# ПУТИ СОВЕРШЕНСТВОВАНИЯ УЧЕТА И АУДИТА ИНВЕСТИЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ ПРЕДПРИЯТИЙ

**Специальность: 5303.01 – «Бухгалтерский учет»**

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по экономике

**Баку – 2015**